**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# VİRCİNİYA VULF VƏ MARQARET DRABL YARADICILIĞINDA FEMİNİZM

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (ingilis ədəbiyyatı)

Elm sahəsi: Filologiya

İddiaçı: **Əzizə Sahib qızı Salamova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Azərbaycan Dilllər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Şahin Həmid oğlu Xəlilli** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Nailə Məmmədhüseyn qızı Sadıqova** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Leyli Əliheydər qızı Əliyeva** |
| | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**Əzizə Qurban qızı Məmmədova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | filologiya elmləri doktoru, akademik<br>**Kamal Mehdi oğlu Abdullayev** |
| Dissertasiya şurasının elmi katibi: | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**İradə Nadir qızı Sərdarova** |
| Elmi seminarın sədri: | filologiya elmləri doktoru, professor<br>**Cəlil Qərib oğlu Nağıyev** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müstəqilliyin qazanılması ilə Azərbaycanın siyasi, iqtisadi, təhsil, mədəniyyət sahəsində əldə etdiyi dinamik uğurları sırasına qadın hüquqlarının müdafiəsi, Respublikada gender bərabərliyinin təmini yolunda uğurlu addımlara imza atılmışdır. Gender stereotipləri ilə mübarizədə flaqman rolunda çıxış edən Avropa ənənələrinə, eləcə də tarixi keçmişimizdə yaşadılan qadın-kişi bərabərliyi təcrübəsinə əsaslanan yeni dövlət siyasəti cəmiyyətdə qadınların rolunun artırılmasını, onların hüquq və azadlığının tam təmin olunmasını hədəfə almışdır. Ümummilli Lider H.Əliyevin qeyd etdiyi kimi, *"Azərbaycan qadınları XX əsrdə qısa müddət ərzində yüzilliklərə bərabər inkişaf yolu keçmişdir. Onların cəmiyyətdə, ictimai həyatda, ailədəki mövqeyində köklü dəyişikliklər baş vermişdir. Əldə edilmiş nailiyyətlərlə yanaşı sovet dövründə formalaşan stereotiplər milli və ənənəvi xüsusiyyətləri, sırf qadına məxsus cəhətləri bəzən nəzərə almırdı. Qadın məsələlərinin həlli və qadının inkişafı haqqında sovet konsepsiyasında bir çox amillər diqqətdən kənarda qalırdı. Məşğulluğun forması, göstəriciləri qabardılır, əməyin keyfiyyətli, qadının daxili tələbatı ilə bu əməyin uyğunluğu və qadının əməkdə öz potensialını ifadə etmək imkanları unudulurdu"*[1]. Lakin tez bir zamanda gender bərabərliyinin təmin olunmasında atılan addımlar Respublikamızda qadın hüquqlarının müdafiəsi işinə diqqəti daha da artırdı. Bu əsasda feminizm ideyalarının tədqiqi, Avropa feminizminin tarixi və müasir durumunun araşdırılması xüsusi aktuallıq kəsb etdi. Bu mənada təqdim olunan dissertasiya mövzusunun məhz Avropanın siyasi-iqtisadi flaqmanlarından biri olmaqla yanaşı, qitənin öndər mədəniyyət ocaqlarından sayılan Böyük Britaniyada meydana gələn feminizmin tədqiqi, konkret olaraq, XX əsrin ən görkəmli qadın yazarlarından Virciniya Vulf və Marqaret Drablın yaradıcılığı nümunəsində feminizm ideyalarının araşdırılması aktuallığı ilə diqqəti cəlb edir.

---

[1] Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 6 mart, 2000-ci il. URL: http://www.e-qanun.az/framework/597

10 oktyabr 2006-cı ildə ölkə prezidenti İlham Əliyevin imzaladığı "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanun ölkəmizdə gender probleminə marağın və bilavasitə qadın hüquq və azadlığının müdafiəsi işində dövlət dəstəyinin səngiməк bilmədiyini bir daha əyani şəkildə sübut etmişdir. Ölkəmizin Avropaya inteqrasiya siyasəti yürütməsi gender bərabərliyinin təminatı yolunda uzunmüddətli və yetərincə uğurlu təcrübəsi olan Avropa ənənələrindən bəhrələnməyə əlverişli şərait yaratmışdır. 2008-ci ilin iyununda Bakıda keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda Beynəlxalq forum həmin diqqət və qayğının əyani təzahürü sayılmaqla bərabər, qısamüddətli müstəqillik tarixinə malik gənc Respublikamızın bu sahədə beynəlxalq təcrübədən faydalanmağa açıq olduğunu ortaya qoymuşdur. Bu mənada Avropa feminizminin novator ideyalarını mənimsəmiş V.Vulf və M.Drabl yaradıcılığının tədqiqi, heç şübhəsiz ki, aktuallığı ilə nəzər-diqqəti cəlb edir.

XX əsrin əvvəllərində yazıb yaratmış V.Vulfun və hal-hazırda yaradıcı fəaliyyətini davam etdirən müasir Britaniya yazarlarından biri M.Drablın yaradıcılığında feminist ideyaların müştərək şəkildə tədqiqi ədəbiyyatın cəmiyyət stereotiplərini əks etdirməsi, sosium tələbatlarına "ayna" və "dilmanc" olması baxımından tədqiqat işinin aktuallllığını şərtləndirir. Belə ki, hər iki yazarın fəal yaradıcılıq dönəmi arasındakı zaman kəsiyində Britaniya cəmiyyətində qadına münasibətin, qadının sosial fərd kimi, şəxsiyyət kimi, o cümlədən, yaradıcı şəxsiyyət kimi qavranılmasında əsaslı dəyişikliklərin baş verməsi onların feminist ideyalarının müqayisəsi yalnız tədqiqini yetərincə aktual edir. Belə ki, Virciniya Vulf və Marqaret Drabl yaradıcılığında feminist ideyaların qarşılaşdırması təkcə yaradıcı fərd olaraq, iki böyük ədibin qadının cəmiyyətdəki roluna münasibətini deyil, eləcə də onların aid olduğu toplumların zaman fərqliliyi baxımından daha bənzərsiz yanaşmasını əks etdirir. Bu baxımdan həmin yazıçıların yaradıcılığının ayrı-ayrılıqda deyil, məhz müqayisəli şəkildə tədqiqi mühüm aktuallıq kəsb etməyə bilməz.

Qeyd edək ki, Azərbaycan ədəbiyyatşünaslığında V.Vulf və M.Drabl yaradıcılığının tədqiqini hədəfə alan müəyyən səpkili

araşdırmaların mövcudluğuna rəğmən (konkret olaraq, F.S.Zülfüqarovanın dissertasiya işini,[2] A.İsmayılovanın araşdırmasını[3] bu sırada xüsusilə qeyd etmək olar), son dövrdə bu ədiblərin feminist ideyalarının sistemli təhlili aparılmamışdır. İstər ayrılıqda V.Vulf və M.Drablın feminist ideyalarının tədqiqi, istərsə də onların qadın və gender problemlərinə yanaşmasının müqayisəsini hədəfə alan dissertasiya işinin yazılmaması və ya monoqrafik araşdırmanın aparılmaması bu problemin tədqiqinin mühüm aktuallıq kəsb etdiyini söyləməyə əsas verir.

Maraqlıdır ki, dünya və postsovet ədəbiyyatşünaslığında istər V.Vulf, istərsə də M.Drabl yaradıcılığının müxtəlif məqamlarının tədqiqinə, o cümlədən onların feminist ideyalarının araşdırılmasına yetərincə diqqət ayrılmışdır. Konkret olaraq, V.Vulf yaradıcılığı Qərb tədqiqatçılarının,[4] eləcə də postsovet mühitinin alimlərinin fərqli spektrli tədqiqatlarının obyekti olmuşdur.[5] Bu sırada V.Vulfun qadın probleminə münasibətini təhlil edən, onun feminist ideyalarını araşdıran müxtəlif araşdırmalar aparılmışdır.[6] Öz sələfiylə

---

[2] Zülfüqarova, F.S. İngilis və Azərbaycan ədəbiyyatlarında insan konsepsiyası (Virciniya Vulf və Afaq Məsudun yaradıcılıqları əsasında): /filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı/ – Bakı, 2006. –26 s.

[3] Исмайлова, А. Женская проблема и «конфликт поколений» в произведениях Афаг Масуд и Маргарет Дрэббл. URL: http://www.translit.az/ ELEKTRON%20 KITABXANA/ELMNEZERIMESELE/Ismayilova_Aybeniz-Qadin_problemi.htm

[4] Брэдбери, М. Вирджиния Вулф. (Пер. А.Нестерова) // Иностранная литература, – 2002. №12, – с.48-54; Blair, E. Virginia Woolf and the Nineteenth-Century Domestic Novel. / E.Blair. – London: SUNY Press, – 2012. – 300 p.

[5] Исакова, Ю.А. Эстетика смерти в романе Вирджинии Вулф «Миссис Дэллоуэй» // – Екатеринбург, Слово – текст – смысл, – 2008. №3, – с.50-54; Колотов, А.А. Поэтический взгляд в романе В.Вулф «Миссис Дэллоуэй» // Филологический сборник: Поэтическая студия. Межвузовский сборник научных трудов. – Красноярск: РИО КГПУ им. В.П. Астафьева, – 2004. – 148 с.; Коугия, Л.А. «Поток сознания» в творческой эволюции Вирджинии Вулф // Вестник Костромского государственного университета им. Н.А.Некрасова, – 2007. №2, – с.216-220

[6] Денисова, И.В. Гендерный аспект романа Вирджинии Вулф «Орландо» // Альманах современной науки и образования, – 2009. № 2/2, – с.46-48; Хасиева, М.А. Гендерная проблематика и феминизм в творчестве Вирджинии Вулф // Истор., филос., полит. и юрид. науки, культурология и искусствоведение. Вопр. теории и практики, – 2013. №1/2, – с.202-207; Goldman, J. “The

müqayisədə daha məhdud tədqiqatların obyektini təşkil edən M.Drablın yaradıcılığının da diqqətdən kənarda qaldığını söyləmək olmaz. Belə ki, Qərb tədqiqatçıları,[7] eləcə də postsovet məkanının araşdırıcıları[8] M.Drabl nəsrinin bir çox aspektlərini öyrənib tədqiq etmişlər. Bu sırada müəyyən səviyyədə yazıçının feminist görüşlərinin romanları bazasında inikas özəlliklərinin də bu və ya digər səviyyədə tədqiq edildiyini də qeyd etmək istərdik.[9] Bununla belə, nəinki postsovet ədəbiyyatşünaslığında, eləcə də Qərb və

---

Feminist Aesthetics of Virginia Woolf: Modernism, Post-impressionism, and the Politics of the Visual". / J.Goldman. – University of Dundee, – 2001. – 159 p.; Gruber, R. Virginia Woolf: The Will to Create as a Woman. / R.Gruber. – Carroll & Graf, Literary Criticism, – 2005. – 176 p.; Kronenberger, L.Virginia Woolf Discusses Women and Fiction. //"The New York Times", – 1989, 10 November; Montashery, I. A Feminist Reading of Virginia Woolf's Mrs Dalloway// International Journal of Applied Linguistics & English Literature, – Vol.1. – 2012. No 3, July, – p.22-28

[7] Manheimer, J. Margaret Drabble and the journey to the self // Studies in the Literary Imagination; Fall 78, – Vol. 11. – 1978. September, – 127 p.; Michael, F. Harper Margaret Drabble and the Resurrection of the English Novel // Contemporary Literature, – Vol. 23. – 1982. No. 2, – p.145-168

[8] Благовещенская, А.А. Своеобразие стиля художественной прозы Маргарет Дрэббл 1960-70-х годов: /Автореф. дисс. кандидата филологических наук/ – Казань, 2004. – 19 с.; Дубовик, С. Проза М.Дрэббл. Этапы творчества: /Автореф. дисс. кандидата филологических наук/ – М., 1987. – 15 с.; Филимонова, Т.В. Проблемы интеллектуальной и нравственной свободы в творчестве Маргарет Дрэббл 1960-х годов: /дисс. кандидата филологических наук/ – Санкт-Петербург, 2009. – 179 с.

[9] Gussow, M. For Mother, No Escape From the Past; A Margaret Drabble Novel Traces Her Family's Dreams and Disappointments. // "The New York Times", – 2001, 28 May; Mackenzie, S. Mothers and Daughters. // "The Guardian", London, – 2000, 16 December; Tapaswi, S. Feminine Sensibility in the Novels of Margaret Drabble: An Interpretationand Evaluation. / S.Tapaswi. – New Delhi: Atlantic Publishers & Distributors Pvt Ltd, – 2004. – 144 p.; Якубель, К.Ю. Духовное становление личности молодой женщины в романе Маргарет Дрэббл «Мой Золотой Иерусалим». URL: http://elib.bsu.by/bitstream/123456789/ 114617/1/ Yakubel_resume.pdf; Hadley, T. Margaret Drabble Rereading. The Millstone – the crucial 1960s feminist novel. URL: https://www.theguardian.com/books/ 2015/may/15/the-millstone-the-crucial-1960s-feminist-novel; Johnson, D. Drabble and Byatt don't talk and won't read each other's books but other than that get along fine. URL: http://www.mhpbooks.com/drabble-and-bryant-dont-talk-and-wont-read-each-others-books-but-other-than-that-get-along-fine-they-say/

ümumilikdə müasir dünya ədəbiyyatşünaslığında bu iki yazıçının feminist ideyalarının müştərək və müqayisəli tədqiqat işi aparılmamışdır. Bu isə öz növbəsində dissertasiyada qoyulan problemin Azərbaycan ədəbiyyatşünaslığı üçün də aktuallıq kəsb etdiyini söyləməyə əsas verir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Britaniya qadın ədəbiyyatı, konkret olaraq onun ən görkəmli nümayəndələrindən sayılan Virciniya Vulf və Marqaret Drablın yaradıcılığında feminist ideyalar problemi təşkil edir.

Tədqiqatın predmetini isə müxtəlif zaman kəsiyində yazıb yaratmış hər iki böyük qələm ustasının yaradıcılığındakı feminist ideyaların təhlili, həmin ideyaların genezisinin müəyyənləşdirilməsi, adı çəkilən ediblərin yaradıcılığında təzahür formalarının müəyyənləşdirilməsi, habelə V.Vulf və M.Drablın yaşayıb yaratdığı fərqli tarixi dönəmlərdə formalaşmış feminist ideyaların özünəməxsusluğunun və müxtəlifliklərinin müəyyənləşdirilməsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Britaniya ədəbiyyatının məşhur qadın yazıçıları V.Vulf və M.Drablın yaradıcılığında feminist ideyaların müqayisəli şəkildə tədqiqi araşdırmanın əsas məqsədini təşkil edir. Bu məqsədi reallaşdırmaq üçün aşağıdakı vəzifələri yerinə yetirmək zərurəti yaranmışdır:

– V.Vulfun "Şəxsi otaq" essesində yaradıcı qadının sosial kimliyi məsələsinə münasibətini təhlil etmək, əsərdə əks olunmuş feminist ideyaların onun yaradıcılığında əks olunmuş mövqeyi ilə səsləşməsinin səviyyəsini müəyyənləşdirmək;

– V.Vulfun "Şəxsi otaq" essesində "otaq" anlayışının metaforik anlamda qadının müstəqillik simvolu kimi nələri ehtiva etdiyini yəqinləşdirmək; ədibin qadın azadlığına, xüsusilə yaradıcı qadının sərbəstliyinə münasibətdə hansı prinsiplərdən çıxış etdiyini açıqlamaq;

– V.Vulfun feminizm konsepsiyasının konturlarını əks etdirən "Missis Dəllouey" romanında müəllifin insan və qadın konsepsiyasını təyin etmək; "Missis Dəllouey" romanında Missis Dəllouey obrazının daxili aləmini açıqlamaq, onun "ruh əkizi" olan Septumus obrazının yaşadığı mənəvi təbəddülatların Klarissanın keçirdiyi hiss və həyəcanlarla paralelliyini izləmək;

– Əsərdəki digər qadın obrazların – Salli Seton və Kilmanın səciyyələndirilməsi və onların Klarissa Dəlloueylə münasibətləri fonunda qadın və cəmiyyət probleminin fərqli spektrlərinə aydınlıq gətirmək;

– M.Drablın feminist görüşlərinin formalaşmasında müstəsna rol oynamış şəxsi həyat çətinliyinin və sınaqlarının onun feminist ideyalarının formalaşmasındakı rolunu dəyərləndirmək; bu zəmində ədibin böyük bacısı A.S.Bayettlə münasibətləri kontekstində yaranan qarşıdurmanın onun (M.Drabl) yaradıcılığında ("Yay fəslindəki quş qəfəsi", "İşıqlı yol", "Dəyirman daşı") iki bacının – iki qadının həyat tərzinin qarşılaşdırılması modeli şəklində izlənildiyini təsbit etmək; həmin ənənəvi-patriarxal və yenilikçi-feminist həyat modellərinin qarşılaşdırılması əsasında M.Drablın feminist ideyalarının əsas konturlarını müəyyənləşdirmək;

– "Pərvanə" romanındakı Bessi Bautri obrazı ilə ədibin anasının həyatı arasındakı paralellər əsasında onun feminist ruhlu mesajlarına aydınlıq gətirmək; "xoşbəxt ola bilməyən" qadın tipajının kökündə cəmiyyətdə özünü tapa bilməyən qadının daxili təbəddülütlarının ümumi konturlarını yəqinləşdirmək;

– "Dəyirman daşı" romanında qadının sosial gerçəkliyinin başlıca faktorunun uğurlu nikah olması ilə bağlı cəmiyyət stereotiplərinə etirazının mahiyyət və səviyyəsini müəyyənləşdirmək; nikahdankənar övlad dünyaya gətirməyə qərar verən baş qəhrəmanın yaşadığı mənəvi çətinliklərin cəmiyyətdə hökm sürən gender asimmetriyası ilə bağlılıq səviyyəsini təsbit etmək;

– V.Vulf və M.Drablın feminist görüşlərinin oxşarlıq və fərqliliklərini şərtləndirən amillərin təhlili kontekstində koqnitiv konstantalar və kulturoloji modellərin qarşılaşdırmasını aparmaq və onların yazıçı şəxsiyyətlərinin müqayisəsi fonunda androginlik və feminlik ziddiyyəti və birgəmövcudluğunun modellərini dəyərləndirmək; V.Vulfun androgin, M.Drablın isə daha femin yaradıcı kimliyini müəyyənləşdirən psixoemosional səbəbləri təsbit etmək;

– V.Vulfun "Mayaka doğru" romanında əksini tapmış ailə münasibətlərini müəllifin ortaya qoyduğu feminizm ideyaları kontekstində dəyərləndirmək, Mister və Missis Remzi obrazlarının münasibətlərində cəmiyyət stereotiplərilə yanaşı, ədibin özünün

qadının cəmiyyətdəki kimliyi məsələsinə münasibətinin hansı səviyyədə əks olunduğunu yəqinləşdirmək;

– V.Vulfun “Mayaka doğru” romanında Missis Remzi və Lili Brisko obrazlarının müqayisəsi əsasında təqdim edilmiş olan qadının cəmiyyətdəki rolunun iki modelinin implisit xarakterli müqayisəsini təhlil etmək; müəllifin həmin modellər arasında öz seçimində daha çox hansı yaşam tərzi modelinə üstünlük verdiyini təsbit etmək;

– M.Drablın “Qızıl Yerusəlim” romanında müəllifin feminist ideyalarının inkişafını izləmək; romanın baş qəhrəmanı Klaranın şəxsiyyət metamorfozlarının nümunəsində feminizmin yanlış interpretasiyası mexanizmini izləmək; kişilər vasitəsilə əldə edilən qadın “müstəqilliyi” və sosial statusunun dayanıqlı olmaması ilə bağlı müəllif ideyasını təhlil etmək;

– V.Vulf və M.Drablın “Mayaka doğru” və “Qızıl Yerusəlim” romanlarının müqayisəsi əsasında feminist ideyalarının fərqliliyini şərtləndirən amilləri dəqiqləşdirmək; onların konkret müddəalar əsasında müqayisəsini aparmaq və s.

**Tədqiqat metodları**. Tədqiqatın metodlarına gəlincə, araşdırma əsnasında müqayisəli-tarixi və tipoloji metodlardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– V.Vulfun “Şəxsi otaq” əsəri dövrünün ən qətiyyətli feminist manifestlərindən biri kimi səciyyələndirilə bilər; burada ədib qadının cəmiyyətdəki rolu, qadının hüquq və azadlığı barədə fikirlərini səsləndirməklə yanaşı, Britaniya ədəbiyyatı tarixində qadın müəlliflərin qarşılaşdığı ayrı-seçkiliyi və ümumilikdə cəmiyyətdə hökm sürən gender asimmetrikliyini çəkinmədən əsaslı şəkildə tənqid etmişdir;

– V.Vulfun “Şəxsi otaq” əsərində qadının sosial kimliyinin cəmiyyətin sosial sağlamlıq “barometri” olması ideyasından çıxış edərək, qadının özünün cəmiyyətdaxili realizasiyasını qazanmasının vacibliyi vurğulanır, bu mənada qadının maddi müstəqillik ideyası, onun özünün “şəxsi otağa” – sığınacağa sahib olmasının əhəmiyyətinə xüsusilə diqqət yetirilir.

– V.Vulfun “Missis Dəllouey” romanı ədibin feminizm konsepsiyasının əsas konturlarını əks etdirən əsər kimi səciyyələn-

dirilə bilər; əsərin baş qəhrəmanının cəmiyyətdəki sosial status və qadın xoşbəxtliyi dilemmasının ağır yükü barədə düşüncələri ədibin XX əsrin əvvəlləri üçün mövcud stereotiplərin implisit şəkildə ifşasına cəhdi kimi dəyərləndirilə bilər. Romandakı Septumus obrazının Klarissa Dəlloueyin bir növ "ruh əkizi" kimi verilməsi, ikincinin səsləndirə bilmədiyi düşüncələrinin dilmancı kimi Septumusun təqdim edilməsi Missis Dəlloueyin cəmiyyətdaxili qanunlara, sosial iyerarxiyaya əsl münasibətini əks etdirir.

– Klarissa Dəlloueyin Salli Setonla münasibətlərinin dinamikasını izləyən ədib həmin metamorfozlar vasitəsilə Britaniya cəmiyyətində qadına qarşı qoyulan tələblərin hətta ən iradəli, asi ruhlu şəxslərin qaydalara uyğunlaşmasını qaçılmaz etdiyini ortaya qoyur. Digər tərəfdən, Missis Dəlloueyin Kilmanla münasibətləri onun özünün müəyyən stereotiplərdən uzaq olmadığını aşkara çıxarır.

– M.Drablın feminist görüşlərinin təhlili, ədibin yaradıcılığındakı inikas dinamikası onu deməyə əsas verir ki, ədibin şəxsi həyatı, konkret olaraq, doğulub formalaşdığı ailə mühiti, erkən və uğursuz nikahı, sonrakı ikinci izdivacı onun yaradıcılığında səsləndirilmiş feminist düşüncələrin mahiyyətini müəyyənləşdirən başlıca faktorlardan biri kimi çıxış edir;

– M.Drablın bacısı – digər görkəmli Britaniya yazarı A.S.Bayettlə münasibətləri zəminində formalaşmış olan "iki bacı qarşıdurması" modeli ədibin bir çox əsərlərində ("Yay fəslindəki quş qəfəsi", "Dəyirman daşı", "İşıqlı yol") əsas və ya periferik süjet xətti kimi əksini tapmışdır. Həmin qarşıdurma vasitəsilə müəllif ənənəvi-patriarxal ailə modelinə üstünlük verən qadının həyat tərzi və düşüncələrini feminist ideyaların davamçısı olan digər qadının həyat tərzi və düşüncələrilə müqayisə modeli kimi ifadə etmişdir.

– M.Drablın anasının həyat tarixçəsinə istinadən qələmə aldığı "Pərvanə" romanı sosial realizasiya qazanmamış, özünün arzularını gerçəkləşdirmək imkanından məhrum olaraq, yalnız dar ailə ortamında qadının depressivlik və həyatdan narazılıq sindromunun artan templə nəinki onun özünün, eləcə də həyat yoldaşının, övladlarının həyatını zəhərləyə biləcəyini əyani şəkildə ortaya qoyur. Roman qadın xoşbəxtliyi üçün yalnız ailənin yetərliliyi ilə bağlı

cəmiyyət stereotiplərinin tamamilə qəbuledilməz olduğunu bir ailənin üç nəslinin şəxsi faciə və çətinlikləri əsasında əyani şəkildə nümayiş etdirir.

– M.Drablın "Dəyirman daşı" romanı qadının seçim və seçimsizliyi probleminin həlli üzərində köklənməklə, feminist ideyalarının hələ yenicə kütləvilik qazandığı dönəmlərdə – XX əsrin 60-cı illərində şüurlu şəkildə nikahdankənar övlad dünyaya gətirmək seçimi edən və qadının sosial reallaşması üçün ailə qurmağın mütləqliyini qəbul etməyən cəsarətli gənc ziyalı qadının həyat dilemmalarına münasibətini əks etdirir. Birinci şəxsin dilində nəql edilən romanın baş qəhrəmanı bir çox məqamlarda müəllifin alter-eqosunu təşkil etməklə ədibin cəmiyyətdə qadının rolu və mövqeyinə münasibətini əks etdirir.

– V.Vulf və M.Drablın feminist görüşlərinin oxşarlıq və fərqliliklərini şərtləndirən amillərin təhlili onu söyləməyə əsas verir ki, onların bir çox ortaq məqamları vardır, bununla yanaşı, yaradıcı şəxs fərdiyyətindən qaynaqlanan, habelə dövrün sosial-iqtisadi durumu, siyasi ab-havası, feminist ideyaların cəmiyyətdə rezonans doğuran gücünə görə fərqlənən ayrı-ayrı zaman kəsiyi ilə bağlı əhəmiyyətli fərqlər də mövcuddur.

– "Mayaka doğru" romanında V.Vulf cəmiyyətdə qadının rolu məsələsində ikili yanaşma olduğunu və müəyyən mənada Viktorian ənənələrindən qaynaqlanan stereotiplərdən tam uzaqlaşmadığını ortaya qoyur. Onun yaratdığı Missis Remzi obrazının istər Mister Remziyə münasibəti, istərsə də ailə qayğılarına xüsusi həssaslıqla yanaşıb özünü ailə mühitində reallaşdırması V.Vulfun qadının rolu ilə bağlı ənənəvi görüşlərə hörmətlə yanaşdığını göstərir. Missis Remzi və Lili Brisko obrazlarının müqayisəsi isə, əslində V.Vulfun ruhən, mahiyyət etibarilə sonuncunun (Lili Briskonun) dolğun və sosial reallaşma qazanmış həyat mövqeyinə daha diqqətlə yanaşdığını müəyyənləşdirir.

– M.Drabl "Qızıl Yerusəlim" romanındakı iki antaqonist qadın obrazının – Missis Moem və onun qızı Klara Moemin obrazı əsasında qadının cəmiyyətdəki rolu və onun sosial reallaşma qazandığının həyati vacibliyini açıqlayır. Missis Moem reallaşmaya sahib ola bilməyən qadının bir ailənin mənəvi deqradasiyası və

psixoemosional faciəsinə yol açdığını təcəssüm etdirdiyi halda, ədib Klara Moem obrazının nümunəsində yanlış feminizm interpretasiyasını ifşa edir: M.Drabl Klara Moemin sosial reallaşma arzusunda kişilərdən, konkret olaraq, evli və üç uşaq atası olan Qabrieldən istifadə etmək arzusunun elə onun özünün mənəvi aşılanmasına yol aça biləcəyini tam əyaniliklə sübut edir.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq, V.Vulf və M.Drabl yaradıcılığında feminist ideyaların müqayisəli və sistemli araşdırılması dissertasiyanın elmi yeniliyini şərtləndirir. Bununla bərabər onu da qeyd edək ki, V.Vulfun yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında tədqiqat obyektini təşkil etsə də, V.Vulf və M.Drabl yaradıcılığı ədəbiyyatşünaslıqda sistemli monoqrafik şəkildə araşdırılmamışdır. Bu da tədqim edilən dissertasiyanın elmi yeniliyini müəyyənləşdirən cəhətlərdən biri hesab edilə bilər. Dissertasiyada ingilis feminist ədəbiyyatında feminist ideyaları yaradıcılığı ilə iki fərqli zaman kəsiyində səciyyələndirən V.Vulf və M.Drablın əsərlərində müqayisəli şəkildə tədqiqi, bu təhlil kontekstində müəlliflərin yaradıcılığında sərgilədiyi qadın azadlığı, hüquq və haqları ilə bağlı, eləcə də gender stereotiplərinin ifşası və onlara qarşı etirazın formaları müəyyənləşdirilmişdir. Bütövlükdə Britaniyada qadın probleminin dinamikası kontekstində izlənilməsi, ədiblərin fikir və ideyalarının cəmiyyət həyatı ilə əlaqəli şəkildə təhlili və şərhi heç şübhəsiz ki, araşdırmanın elmi yeniliyi kimi dəyərləndirilə bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Dissertasiya çərçivəsində Azərbaycan ədəbiyyatşünaslığı ilə yanaşı, ümumilikdə müasir ədəbiyyatşünaslıqda ilk dəfə V.Vulf və M.Drabl yaradıcılığında feminist ideyaların müqayisəli və sistemli tədqiqi araşdırmanın elmi əhəmiyyəti haqqında aydın təsəvvür yaradır. Bununla yanaşı, Azərbaycan ədəbiyyatşünaslığı üçün ilk dəfə çağdaş ingilis ədəbiyyatının görkəmli nümayəndələrindən biri M.Drabl yaradıcılığının tədqiqata cəlb edilməsi də təqdim edilən araşdırmanın elmi-nəzəri əhəmiyyətini şərtləndirir. Dissertasiyada ilk dəfə olaraq, həm V.Vulfun, həm də M.Drablın feminist görüşlərini sosial-siyasi şərtiliklərinin sistemli təhlili təqdim edilmiş, ədiblərin baxışlarını bu və ya digər rakursda formalaşdıran fərdi (şəxsi həyat, psixoemosional

durum və s.) şərtiliklərin təsir imkanları dəyərləndirilmiş, Böyük Britaniya cəmiyyətində feminist ideyaların yayılmasında müəlliflərin rolu, eləcə də həmin ideyaların müəlliflərinin yaradıcılığına təsir gücü təhlil edilmişdir. Bütün bunlar da şübhəsiz ki, araşdırmanın elmi-nəzəri əhəmiyyətini müəyyənləşdirən vacib cəhətlərdən sayıla bilər.

Dissertasiyanın praktik əhəmiyyətinə gəlincə, mövzu ilə bağlı sistemli tədqiq və təhlil əsnasında əldə edilən elmi nəticə və ümumiləşdirmələr "Britaniya ədəbiyyatı tarixi", "Müasir ingilis ədəbiyyatı", "Qadın ədəbiyyatı" kimi əsas və seçmə fənlərin tədrisində, habelə tədrisin magistratura pilləsində əlaqəli fənlərin öyrədilməsində istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat əsnasında əldə edilən elmi nəticələr məqalə və tezislər şəklində Azərbaycan Respublikasında və xaricdə nəşr olunan müxtəlif elmi məcmuələrdə çap edilmişdir. Dissertasiyada əksini tapmış müddəalar bazasında Beynəlxalq və Respublika səviyyəli elmi konfranslarda məruzələr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işı Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş hissəsi 10 səhifə, I fəsil 44 səhifə, II fəsil 50 səhifə, III fəsil 47 səhifə, Nəticə hissəsi 8 səhifədir. İstifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, işarə ilə ümumi həcmi 309 850 simvoldur.

## İŞİN ƏSAS MƏZMUNU

***Giriş***də mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri müəyyənləşdirilir, tədqiqat metodları, elmi yeniliyi, habelə müdafiəyə çıxarılan əsas müddəalar açıqlanır, eləcə də dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və quruluşu haqqında yığcam elmi məlumat verilir.

Dissertasiyanın **"Virciniya Vulfun yaradıcılığında feminist ideyalar"** adlanan **I fəsli** üç yarımfəsildən ibarətdir. "***Virciniya Vulfun "Şəxsi otaq" əsəri – feminist manifesti kimi***" adlı ilk yarımfəsildə yazıçının məşhur essesində səsləndirdiyi feminist ideyalar, konkret olaraq, qadınların sosial vəziyyəti, yaradıcı qadının cəmiyyətdə layiqli yerini tutması üçün vacib olan şərtlər təhlil edilir, habelə tarixən yaradıcı qadınlara münasibətdə hökm sürmüş gender ayrı-seçkiliyi açıq şəkildə tənqidə məruz qalır, eləcə də, cəmiyyətdə qadının identifikasiyasının, onun həyat yoldaşının sosial statusu, kimliyi ilə ölçülməsinin qəbuledilməzliyi təhlil və şərh edilir. Əsər üç qadının dilindən nəql edilsə də, əslində oxucu onların arxasında V.Vulfun dayandığını görməyə bilmir. İngilis tənqidçisi Ceyn Qoldmən yazıçının feminist estetikasının əsasını dünyaya, cəmiyyətə, siyasətə baxış bucağından istiqamət aldığını qeyd etmiş, ədibin yaradıcılığında gündəlik həyatın insana birbaşa təsir mexanizminin izlərini axtarır və V.Vulfun "feminizm prizmasından" çıxış edərək həyata baxışını ifadə etmişdir[10]. Əsərin ilk səhifələrindən ingilis ədəbiyyatında layiqli yer tutan F.Berni, C.Ostin, Bronte bacıları, C.Eliot, E.Qaskelin adlarını sadalayan yazıçı "qadın və ədəbiyyat" probleminə yanaşmanın mürəkkəb olduğunu qeyd etmişdir. Problemin qoyuluşunda müxtəlif amillərin yer aldığını göstərən alim oxucunu düşünməyə çağırır: *"Əgər dərindən fikirləşsək, qadın və ədəbiyyat problemi daha qəlizdir. Bu ad altında yəqin Siz də güman edirsiniz ki, müxtəlif şeylər nəzərdə tutulur: qadınlar necədir və ya onlar nədən yazır, yaxud onların barəsində nə yazırlar, ya da bu üç sual bir-birilə yetərincə qol-budaq olub"*[11]. V.Vulfda "house" sözünün konseptual açılışı "həyatda uğurun ölçüsü" deməkdir, bu söz onun sosial statusu, azadlığının mənasına çevrilir. Evin olması V.Vulfun düşüncəsinə görə, *"ingilislər üçün ali dəyər, sonda isə uğurun ölçüsüdür. Beləliklə, evi*

---

[10] Goldman, J. The Feminist Aesthetics of Virginia Woolf: Modernism, Post-impressionism, and the Politics of the Visual. / J.Goldman. – University of Dundee, – 2001. – 159 p.

[11] Woolf, Virginia. A Room of One's Own and Three Guineas. / V.Woolf. Edited with an Introduction and Notes by Morag Shiach. – Oxford University Press. – 1998. –p.47

*olmaq, onu əldə etmək milli dəyərlərin fövqündə dayanır"*[12]. L.Boqan da "şəxsi otağ"ın yaradıcılıq üçün həyati vacib hesab edilən təklik və istirahət üçün vazkeçilməz məkan simvolu kimi çıxış etdiyini göstərməklə yanaşı, günümüzədək istedadlı qadının çox vaxt ailə mifi, ailə əsatiri kimi qavranıldığına da diqqət çəkir[13]. XIX əsrin yazıçılarını sadalayan təhkiyəçi Bronte bacılarının, Ceyn Ostinin yaşadığı mühiti canlandırmağa çalışır, onların şəxsi otaqlarının olmamasını – yaradıcı insanın qeyri-adi həyatı ilə izah edir. Təhkiyəçi insanın ruhunda iki başlanğıcın – qadın və kişinin birgə yaşamını təsəvvür edir, kişi təfəkküründə onun tonu kişi, qadında isə onun normal olduğunu qəbul edir. Düşünür ki, rahatlıq o halda əldə edilir ki, onların hər ikisi harmonik şəkildə birgə fəaliyyətdə olur. Yaradıcı insanı yalnız androgen (kişi cinsi) görən V.Vulf böyük əsərlərin müəlliflərini maskulin və feminist düşüncə tərzi ilə yazılmasını məqbul sayır.

"***Missis Dəllouey" romanı – V.Vulfun feminizm konsepsiyasının konturlarını əks etdirən əsər kimi***" adlanan ikinci yarımfəsildə qeyd edilir ki, gənclik xatirələri bir dəqiqə olsun belə rahat buraxmayan Missis Dəlloueyi əri Riçard Dəlloueylə gənclik dostu Piter Uelş arasında düzgün seçim edib-etməməsi fikri onu bir an belə tərk etmir. Klarissa Dəllouey Riçardın ona verdiyi azadlığı dəyərləndirir, bərabər evliliyindən qazandığı sosial status ona rahatlıq gətirir. Piteri sevsə də, onunla rahatlıq tapa bilmədiyini xatırlayır, cəmiyyət qaydalarıyla uyğunsuzluğu onun evlilik təklifinə rədd cavabıyla nəticələnir. V.Vulf qəhrəmanlarının daxili təbəddülatlarını yaşamışdır. Bu barədə tədqiqatçı Y.V.Brejneva haqlı olaraq yazır: *"Vulf dayanıqlıq hissini iki vasitə ilə: keçmişə qayıdışın və ya daxildə baş verən qayıdışın – bir anın dondurulmasıyla canlandırır. Çünki, insansa daxili zamanını dəyərləndirə bilmək üçün, hansısa sabit standart mövcud olmalıdır ki, ona uyğun*

[12] Богатова, С.М. Концепт «дом» как средство исследования художественной картины мира Вирджинии Вулф: /Автореф. дисс. кандидата филологических наук/ – Омск, 2006. – 26 с.
[13] Bogan L. From the Stacks: "Virginia Woolf on Women". "New Republic", 2014, 9 April. URL: https://newrepublic.com/article/117235/louise-bogan-reviews-virginia-woolfs-room-ones-own

*zamanla ölçülə bilsin. Vulfda bu standart narahatlıq anıdır".*[14] Klarissanın seçimi sosial statusunun təminatı olsa da, real xoşbəxtliyinə mane olur, cəmiyyətin qanunları ilə "oynayan" qadının sosial buqələmumluğunun atributuna çevrilir. Bununla belə o, Piteri yadından çıxara bilmir, Riçardın ona verdiyi rahatlıq, qızı Elizabetin varlığı, ailə dəyərlərinə olan sadiqliyi də onun Piter barəsində fikirlərinə mane olmur. Lakin Klarissa eyni zamanda Piter Uelşin real durumunu tam dərk edib onu seçməməkdə yanılmadığını, Riçarda ərə getdiyinin "qələbəsini" yaşadır, yüksək cəmiyyətə məxsus heyranlıq hissi onda həyatda yaşamağa əminlik yaradır. Alim İ.Montaşerinin gəldiyi nəticə də maraq doğurmaya bilməz. O, Klarissanın identikliyinin konstruktiv formalaşmasını sosial təcrübələr və diskurslar vasitəsilə müəyyən edir, onun identikliyinin dəyişmə fazalarını cinsi ideologiyalar və digər sosial konstruksiyalarla bağlayır. *"Patriarxal qaydalara bağlanan qadının identikliyinin formalaşması tam mümkün deyildir"* tezisini irəli sürən alim Klarissanın sosial varlıq olaraq subyekt kimi stabil və bütöv mövqeyə nail ola bilmədiyini qeyd edir.[15]

"***Septimus – Klarissa Dəlloueyin "ruh əkizi" kimi: ölümün cazibəsində***" adlanan üçüncü yarımfəsildə qeyd edilir ki, V.Vulf Septimus obrazını açmaqdan ötrü onun iç dünyasında baş verənləri, illüziyalarını təsvir edir, "sağlam" insanla onu müqayisə etdikdə onların arasındakı təzadları göstərə bilir. Özünü intihar etnək fikri onun üçün qurtuluş, dəhşət "saçan" insanlardan uzaqlaşmaq idi. İntihara cəhd onun aləmində dünyaya, bəşəriyyətə qarşı etiraz, onunla mübarizə apara bilmədiyinin acı həqiqətiydi. V.Vulfun əsərlərində intihara meyilli obrazlara yetərincə geniş yer verilməsi təsadüfi deyildir. Belə ki, həyatını intiharla sonlandıran müəllif həmin "uğurlu" cəhdinə qədər dəfələrlə intihar cəhdini gerçəkləşdirmişdi. *"Septumus sülh şəraitindəki həyata adaptasiya*

---

[14] Брежнева, Е.В. Время внешнее и «время внутреннее» в поэтике романов Вирджинии Вулф // – Пермь: Вестник Пермского университета, – 2011. №4(16), – с.228

[15] Montashery, I. A Feminist Reading of Virginia Woolf's Mrs Dalloway// International Journal of Applied Linguistics & English Literature, – Vol.1. – 2012. No 3, July, – p.22-28

*ola bilmir, mənəvi sınma, depressiya öz növbəsində psixi pozğunluğa yol açır. Son nəticədə hədə-qorxusunu reallığa çevirən Septumus müharibədən sonra həyatda yerini tapa bilməyib öz həyat yolunu müəyyənləşdirmədən dünyasını dəyişir"*[16]. Başqa sözlə desək, V.Vulf ölümü seçimsizlik şəraitində alternativ seçim kimi təqdim edir. Ruhu sərgərdan olan Septumus mənəvi azadlıq ehtiyacında öz cismani "qılafı"na qarşı çıxır, cismini məhv etməklə ruhunu azadlığa qovuşdurur. Onun ruhu uçmaq, sonsuz ənginliklərə qanad çalmaq istəyir. *"... intiharla o,* (Septumus – Ə.S.) *artıq mübarizə üçün gücünün tükəndiyini görüb heç nəyi dəyişdirməyə cəhd göstərmədən sadəcə olaraq bu dünyanı tərk etməklə, onun üçün ikrahdoğurucu insan naturasından qaçmaqla sanki bütün dünyaya qarşı çıxır, ona üsyan edir".*[17] E.Soloduxa qeyd edir ki, missis Dəlloueyin özü ilə bağlı daxili təzadları "həyatın ölümə qalib gəlməsi ilə" nəticələnir: *"Lakin sonda zəfər sürət götürür, bu da missis Dəlloueyi bürüyən sevinc hissiylə bağlıdır – həyat ölümə qalib gəldi, "daxili" zaman "xarici" zamana qələbə çaldı".*[18]

**"Marqaret Drablın yaradıcılığında feminist ideyalar"** adlanan **II fəsli** beş yarımfəsildən ibarətdir. ***"Marqaret Drablın feminist görüşlərinin genezisi: erkən nikah, "cəhd-səhv" metodu, ambivalent yaradıcı kimlik"*** adlanan ilk yarımfəsildə qeyd edilir ki, əsərləri əslində "özünə səyahət", öz daxili aləmindəki problem və komplekslərin çək-çevirindən, təftiş və islah mexanizmlərilə bağlı bədiiləşdirilmiş təhlil kimi səciyyələndirilən[19] M.Drabl yaradıcılığı bilavasitə müəllifin həyatı, onun real yaradıcı portretilə sıx şəkildə bağlıdır. M.Drablın romanlarında bacısı ilə gərgin münasibətləri

---

[16] Галактионова, О.В. Проблема самоубийства в романе В.Вулф «Миссис Дэллоуэй» // – Новгород: Вестник Новгородского государственного университета им. Ярослава Мудрого, – 2003. №25, – с.46-51

[17] Исакова, Ю.А. Эстетика смерти в романе Вирджинии Вулф «Миссис Дэллоуэй» // – Екатеринбург, Слово – текст – смысл, – 2008. №3, – с.52

[18] Солодуха, Е. Феномен времени в эстетической концепции Вирджинии Вулф и его художественное воплощение в романе Миссис Дэллоуэй // Women in Literature: Актуальные проблемы изучения англоязычной женской литературы, – Минск, – 2004. – с.60-69

[19] Manheimer, J. Margaret Drabble and the Journey to the Self // Studies in the Literary Imagination; Fall 78, – Vol. 11. – 1978. September, – 127 p.

("Yay fəslindəki quş qəfəsi", "İşıqlı yol", "Dəyirman daşı"), anası ilə ("Pərvanə"), hətta anasının öz anası ilə ağrılı ailə bağları ("Qızıl Yerusəlim"), uğursuz ilk nikahının kədərli xatirələri ("Qarrik ili") az və ya çox dərəcədə bədii əksini tapır. Konkret olaraq iki bacının qarşıdurması istər M.Drabl, istərsə də A.S.Bayett yaradıcılığında xüsusi süjet sxemi kimi dəfələrlə təkrarlanmışdır. M.Drablın ilk qələm təcrübəsi sayılan "Yay fəslindəki quş qəfəsi" (1963) romanı Sara və Luiz adlı iki bacının toqquşan həyat baxışları və həmin baxışlar əsasında formalaşan fərqli həyat prioritetlərinin mental mübarizəsindən bəhs edir. Burada da öz həyatından məmnun olmayan ana obrazı və həmin mühitdə formalaşmış iki qadın şəxsiyyətinin fərqlilikləri – böyük bacının konservativ və əsasən qadının ailə çərçivəsində gerçəkləşməsinə yönəlik baxışı ilə Oksford Universitetinin bəxtli məzunu olan kiçik bacının feminist dəyərləri toqquşur. Daha müstəqil və daha mübariz ruhlu olan kiçik bacı özünün həyatda gerçəkləşməsini prioritet hesab etdiyi halda, böyük bacısının sevmədiyi varlı bir şəxslə cəmiyyətdə uğurlu mövqe və mötəbərlilik naminə ailə həyatı qurmasının və paralel olaraq gənc aktyorla sevgi münasibətlərini hec cür anlaya bilmir.

***"M.Drabl yaradıcılığında iki bacının qarşıdurması – feminist və patriarxal ideyaların toqquşmasının təzahürü kimi"*** adlanan ikinci yarımfəsildə həmin modelin bilavasitə fərqli gender yanaşmalarını ortaya qoyan baxış bucaqlarının ziddiyyəti kimi diqqətə alındığı vurğulanır. "Dəyirman daşı" romanında baş qəhrəman Rozamundun gender stereotiplərini darmadağın edir. Onun nikahdankənar övlad dünyaya gətirməyə qərar verməsi və şüurlu şəkildə nikaha girməkdən uzaqlaşması böyük bacısının – patriarxal ailə formasına uyğunlaşmaq məcburiyyətində qalmış Oksford məzunu, perspektivli gənc alim olan qadının ideallarına qarşı çıxaraq ailə qılafında öz həyatını yaşayan Beatrisin etirazına səbəb olur. *"Bilirəm ki, sözün əsl mənasında bu yaramaz cəmiyyətdə heç bir uşaq bu cür əzab-əziyyətə dözə bilməz. Bu yaşanılası cəmiyyət deyildir. Mən sənin övladının bu cür məhrumiyyətlərin içindən keçəcəyinə dözə bilmirəm. Bəs sən buna necə tab gətirəcəksən"*[20]

[20] Drabble, M. The Millstone. URL: https://books.google.az/books?id=LuG2v690YIYC&pg=PT87&lpg=PT87&dq=

(tərcümə bizimdir – Ə.S.). Ədəbiyyatşünas A.Zielińskanın da haqlı olaraq qeyd etdiyi kimi, analığa oxunan mədhiyyələr, Beatrisin belə məsləhətlər verməsi Rozamundu böyük xəyal qırıqlığı ilə üz-üzə qoymaqla yanaşı,[21] iki bacı arasında həyat dəyərləri, yaşam prinsipləri baxımından əhəmiyyətli dərəcədə böyük fərqlərin mövcudluğunu əyani şəkildə ortaya qoyur. Eyni zamanda bu fərqlər, habelə ailə üzvləri arasında soyuq münasibətlər Rozamundun mənəvi tənhalığının köklərinin uşaqlıqdan, öz ailəsində hökm sürən mənəvi ab-havadan qaynaqlandığını da müəyyənləşdirməyə imkan verir. M.Drabl ("İşıqlı yol") və A.S.Bayett ("Bağdakı bakirə qız") yaradıcılığında feminliyin patriarxal və eqalitar stereotiplərinin təzahür xüsusiyyətlərini araşdıran tədqiqatçılar hər iki yazıçının romanlarında rəqabət əsaslı münasibətlərin qabardılması faktına xüsusi yer vermişlər[22].

***"M.Drablın anasının qadın obrazlarının formalaşmasına təsiri: "Pərvanə" romanı ədibin ailə münasibətlərinin ekstrapolyasiyası kimi"*** adlı üçüncü yarımfəsildə qeyd edilir ki, müəllifin anasının həyat tarixçəsi əsasında qələmə aldığı "Pərvanə" romanında sosial həyatını gerçəkləşdirə bilməmiş ali təhsilli qadının şəxsi faciəsinin anatonimiya və xronologiyası izlənilir. Məlum olur ki, eynilə anası kimi İngiltərənin Şimal-Şərq əyalətində dünyaya göz açmış və Kembricdə təhsil almış Bessi Bautri özünün uşaqlıq sevgisi ilə ailə həyatı qurduqdan sonra işgüzar ambisiyaları ilə vidalaşmaq məcburiyyətində qalır. Onun nifrət etdiyi əyalət mühitində mənəvi və sosial deqradasiyaya məruz qalması ildən-ilə daha dərin depressiyaya qapılmasına yol açır. Bu durumda daxili "zəhər"ini yaxınlarına "püskürən" Bessi həyat yoldaşının və övladlarının həyatını dözülməz vəziyyətə salır.

---

[21] Zielinska, A. Between Acceptance and Rejection – Margaret Drabble's: The Millstone // Acta Universitatis Lodziensis. Folia Litteraria Anglica, – 1997. No 1, – p.199-209

[22] Климовская, А.Я. Патриархальные и эгалитарные стереотипы феминности и их художественное воплощение в романах А.С.Байетт и М.Дрэббл 1970-1980-х гг. (на материале романов «Дева в саду», «Натюрморт», «Светлый путь», «Естественное любопытство») // Вестник Вятского государственного гуманитарного университета, – 2015. № 9, – с.79-85

***"Qadının seçim və seçimsizliyi problemi – M.Drablın feminist ideyalarının dəyərləndirilməsi"*** adlanan dördüncü yarımfəsildə göstərilir ki, yaradıcılığında müasir Britaniya cəmiyyətini narahat edən problemlərin "nəbzini tutmaq", xüsusilə həmcinslərinin toplumda üzləşdiyi çətinlikləri qərəzsiz və obyektivliklə qələmə almaq bacarığına və qadınların ən gizli istək və arzularının dilmancı rolunda uğurla çıxış etdiyinə görə M.Drabl müasir Britaniya ədəbiyyatının "ən məşhur feminist" qələm ustalarından biri sayılır. *"O, bügünkü gün üçün İngiltərənin ən maraqlı romançılarından biridir və yəqin ki, onun karyerası digərlərinin böyük əksəriyyətindən daha mühümdür. Çünki o, müasir Britaniyanın salnaməçisi, xronikyorudur. Romanistlər yüz illər bundan öncə də bunu etmişlər. Viktorian Londonu üçün Dikkens, Paris üçün Balzak nə idisə, nə anlam kəsb edirdisə, Drabl da XX əsrin sonlarında belə bir mövqedə dayanır".*[23] Cəmiyyətdə qadına və kişiyə qoyulan sosial hökmlülük tələblərinin fərqləndiyindən, stereotip yanaşmalar baxımından qadın azadlığının məhdudluğundan çıxış edən M.Drabl qəhrəmanları gender assimetrikliyinin istənilən təzahür formalarına etirazını dilə gətirməkdən çəkinmir. *"Bu azadlıq, heç şübhəsiz ki, cəmiyyətimizdə baş vermiş böyük inqilabla əlaqəlidir. Bu məqam kontraktın son bəndi, son akkordu kimidir. Təhsil, iş azadlığı, əmək haqqının ödənilməsinin bərabərliyi və sosial bərabərlik – bütün bunlar bəlkə də o qədər böyük məsələlər deyil, sadalananların hamısı gözlənilməz körpənin dünyaya gəlişi ilə heçə endirilə bilər"*[24] (tərcümə bizimdir – Ə.S.).

Problemin təhlilinin davamı olaraq, ***"M.Drabl yaradıcılığında ailədə qadının sosial gerçəkliyinin təsir mexanizmləri haqqında ("Dəyirman daşı" romanı əsasında)"*** sərlövhəli beşinci yarımfəsildə qeyd edilir ki, romanın baş qəhrəmanı Rozamundun timsalında bir xanımın, əslində gənc bakirə qızın həyatında baş vermiş, demək olar ki, inqilabi "çevirilişləri" qələmə alan ədib onun çətin seçim anında özünü, özünün şəxsiyyət kimi bütövlüyünü, gələcəyini ayırd edir və bununla da, paralel olaraq ana olmaq seçimini etməklə, övladını, onun həyatını, gələcəyini müəyyənləşdirir. M.Drablın qəhrəmanları

---

[23] Rose, Ph. Our Chronicler of Britain. // "The New York Times", – 1980, 7 September
[24] Drabble Margaret: The Sexual Revolution (1967), 4 p. URL: https://pdcrodas.webs.ull.es/anglo/DrabbleTheSexualRevolution.pdf

yalnız ev, ailə, mətbəxlə məhdudlaşdırılan "qadının vəzifələri" stereotiplərilə kökündən razılaşmırlar. Ədib etiraf edir ki, *"Mənim qadınlarım daha fərqli məsələlərdə maraqlara sahib olurlar. Onlar maraqlarını həyatında, özlərinin siyasətdə tanınmasında və həyatda qazana biləcəyi məsələlərdə cəmləşdirmişlər".*[25]

XX əsrin 60-cı illərinə qədər qadının sosial hökmlülüyü ilə bağlı stereotiplər və aldığı tərbiyə onda cinsəl həyatı dərk etmək sirrinə ruhlandırır. Rozamund artıq "seksual inqilaba" yaxınlaşdığı ərəfədə, cəmiyyətin belə ciddi, sıçrayışlı dəyişkənliyinə hamilə olduğu zaman bələd olur. Rozamund məhz, özünün "Viktorian bakirəliyi"ndən utanır, bu vəziyyətin ətraf çevrəsində insanların hali olmasından açıq-aşkar ehtiyat edir. Həyatına daxil olan Corc Mətyuz sayəsində "Viktorian utanc"ından qurtulan Rozamund, eləcə də əks cinslə hüquq bərabərliyi "çarpışması"na girərək, qadın üçün nikahın həlledici, həyati əhəmiyyətli məqam olmadığını sübuta yetirir.

**"Virciniya Vulf və Marqaret Drablın feminist ideyalarının oxşar və fərqli cəhətləri: "Mayaka doğru" və "Qızıl Yerusəlim (Qüds)" romanlarının müqayisəsi əsasında"** adlanan **III fəsildə** hər iki ədibin feminist görüşlərinin oxşarlıq və fərqliliklərini şərtləndirən amillər haqqında ilk olaraq qadının cəmiyyətdəki rolunun iki modeli qarşılaşdırılır: Missis Remzi ilə Lili Brisko problemləri araşdırılır.

Fəslin müvafiq yarımfəsillərində Virciniya Vulf və Marqaret Drablın feminist görüşlərinin oxşarlıq və fərqliliklərini şərtləndirən amillər, hər iki ədibin şəxsiyyətinin qarşılaşdırılması: androginlik, feminlik ziddiyyət və birgə mövcudluğu – yeni həqiqət forması kimi araşdırılmışdır. V.Vulfun "Mayaka doğru" romanında ailə münasibətləri feminizm ideyaları kontekstində təhlil və tədqiq edilmiş, M.Drablın "Qızıl Yerusəlim" romanında qadının özünü identifikasiya və mənəvi metamorfozları problemləri gündəmə gətirilmişdir. Virciniya Vulfla Marqaret Drablın feminist ideyalarının oxşar və fərqli xüsusiyyətləri müəyyənləşdirilmişdir.

***"Virciniya Vulf və Marqaret Drablın feminist ideyalarının fərqliliyini şərtləndirən amillər haqqında ("Mayaka doğru" və***

---

[25] The Believer – Margaret Drabble interviewed by Lydia Perović // The Believer, Fall 2015. URL: http://www.believermag.com/exclusives/?read=interview _drabble

***"Qızıl Yerusəlim" romanlarının müqayisəsi əsasında)"*** adlanan son yarımfəsildə qeyd edilir ki, V.Vulf və M.Drablın feminist ideyaları ideoloji müstəvidə özünün əsas, nüvə konsepsiyası ilə eyniyyət təşkil etsə də, onların strateji planda ortaqlığına mane olan taktiki fərqlilikləri də görməmək mümkün deyildir. Belə ki, V.Vulfun "Mayaka doğru" romanında Missis Remzi obrazına ambivalent münasibəti onun ümumiyyətlə qadının cəmiyyətdəki münasibətindəki ikili yanaşmasını ortaya qoyur. Bir tərəfdən, V.Vulf qadının ilkin həyati missiyasının ailə daxilində gerçəkləşməsi ilə bağlı stereotiplərdən tam uzaqlaşa bilmir, digər tərəfdən isə, o, Missis Remziyə olan qıcıqlandırıcı reaksiyaların timsalında onun ifrat itaətkarlığını, hər şeyi anlayışla qarşılamağını, həddindən artıq səbrliliyini, hər şeydən öncə, özünə qarşı yönəlmiş, xarakterinə zidd olan dözümlülüyünü açıq şəkildə qınayır. V.Vulf anasının prototipiolan Missis Remzini həm anlayır, həm də onu anlamaqda çətinlik çəkir. O, nə dərəcədə anasıyla, anasının prototipi hesab edilən Missis Remziyə heyranlıq hissi ilə yaşasa da, onların cəmiyyətin gender stereotipinə boyun əyməsini qəbul edə bilmir. Ondan fərqli olaraq, M.Drablın qadın probleminə münasibəti dəqiq və birmənalıdır. O, qadının ailə ortamında reallaşmasını inkar etmədən, həyat yoldaşı və ana ipostasiyalarının qadının yeganə sosial-mənəvi prioritetləri olmadığı gerçəkliyindən çıxış edir və hər zaman əsərlərində qadının özünün bir fərd, bir toplum nümayəndəsi, bir şəxsiyyət olaraq özünün gerçəkləşməyə labüd, zəruri ehtiyacı olduğunu vurğulayır. Qadının cəmiyyətdəki mövqeyinin bilavasitə onun şəxsi göstəricilərindən qaynaqlanmalı olduğunu, qadınların kişilər üçün və ya kişilər vasitəsilə mövqe qazanmasını tamamilə yanlış və yararsız yanaşma hesab edir. V.Vulf və M.Drabl yanaşmalarındakı fərqləri dəyərləndirərkən onların hər birinin şəxsiyyət kimi, eləcə də yaradıcılığının bir toplum "aynası" kimi aid olduğu cəmiyyətin "məhsulu" olması gerçəkliyindən çıxış etmək lazımdır. Əgər V.Vulfun yaradıcılığının geniş vüsət aldığı dövrdə qadının təhsil haqqı, seçki hüquqları müzakirə obyekti idisə, M.Drablın dövründə artıq bu məsələlər həll edilmişdi.

Dissertasiyanın **"Nəticə"** hissəsində elmi ümumiləşdirmə və nəticələr aşağıdakı kimi təqdim edilmişdir:

– V.Vulfun əsərlərində feminist ideyaları bu və ya digər şəkildə əks olunmuş, onun qadının haqq və azadlığı, sosial hökmlülük və imtiyazları barədə fikirləri aşkar və ya implisit şəkildə istər bədii yaradıcılığında, istərsə də məqalə və esselərində səsləndirilmişdir. Ədibin feminist ideyalarının əks olunduğu əsərləri sırasında “Şəxsi otaq” essesi bir çox cəhətlərilə diqqəti çəkir. Burada qadının sosial durumu, yaradıcı qadının həyat şərtləri, cəmiyyətdə ona münasibət baxımından bir çox cəsarətli fikirlər səsləndirildiyindən həmin esseni tərəddüd etmədən müəllifin feminist manifesti kimi səciyyələndirmək olar;

–V.Vulf “Şəxsi otaq” əsərində qadının müstəqil və ləyaqətli yaşamı üçün müəyyən sosial şərtlərin mövcudluğu tələbini ön plana çəkməklə, qadına, xüsusilə də yaradıcı qadına “şəxsi otağın”, yəni həm maddi təminat və seçim azadlığının, həm də yaradıcı “sığınacaq yerinin” mütləq vacibliyini vurğulamışdır;

– “Missis Dəllouey” romanının təhlili onu söyləməyə əsas verir ki, əsər V.Vulfun feminizm konsepsiyasının konturlarını göstərməklə bərabər, onun insan, qadın konsepsiyasının dərin qatlarına enmək üçün əyani imkan yaradır. Məlum olur ki, romanın baş qəhrəmanı Missis Dəlloueyin daxili narahatlığı, həyəcanları onu keçmişlə indiki zaman kəsiyində qalmağa vadar edir, əri Riçard və ya Piter arasında seçimin düzgün olub-olmaması dillemması qarşısında qoyur. Onun seçimi sosial statusunun təminatı olsa da, real xoşbəxtliyinə mane olur, cəmiyyətin qanunları ilə “oynayan” qadının sosial buqələmumluğunun atributuna çevrilir;

– Septimus obrazının təhlili onun bir çox məqamlarda Klarissa Dəlloueyin dilə gətirmək istədiyi, lakin cəmiyyət şərtilikləri qarşısında səsləndirə bilmədiyi fikirlərinin dilmancı olduğunu söyləməyə əsas verir. Ölümün cazibəsinə qapılan Septimus intiharı ilə Klarissanın ruhuna hakim kəsilmiş ölüm cazibəsini heçə endirir, bir növ onu ayıldıb real həyata qaytarır;

– Klarissa Dəllouey və Salli Seton münasibətlərinin təhlili burada keçmişlə bu günün səssiz “dialoqu”nun izlənildiyini təsbit etməyə imkan verir. Salli illər sonra azadlığını sakit və rahat yaşayışına, cəmiyyətin diktə etdiyi sosial statusa qurban verir. Artıq o, gənclik illərində olduğu kimi düşünmür, həyata ailə xanımı,

uşaqlarının anası kimi dəyər verir. Bu isə öz növbəsində Klarissa və Sallinin münasibətlərindəki keçmişlə bugünkü reallıqların cəmiyyət şərtiliklərinin diktəsilə dəyişdiyini söyləməyə zəmin yaradır;

– Klarissanın cəmiyyətdəki mövqe, var-dövlət naminə seçdiyi Riçard Dəlloueylə xoşbəxt ola bilmədiyinin başlıca səbəbi işgüzar həyata qapılmış həyat yoldaşının Klarissaya bir qadın kimi onun arzuladığı diqqəti ayıra bilməməsidir. Praqmatik ağlı Riçard seçiminin haqlılığını müdafiə etdiyi halda, romantik ruhu, sevgiyə möhtac ürəyi keçmiş həyat üçün göz yaşı tökür;

– Miss Kilman obrazının təhlili onun Klarissa Dəllouey obrazına xas həyat tərzinə alternativ həyat modelinin ekstrapolyasiyası kimi ortaya çıxdığını təsbit etməyə əsas verir. Miss Kilman isə Missis Dəlloueyə onu öldürməyə hazır olan bir şəxs qədər nifrət edir, onun öz sosial statusunun imtiyazlarından yararlanan təkəbbürlü, bivecin birisi olduğunu düşünür;

– M.Drablın feminist görüşlərinin genezisinin təhlili burada onun doğulduğu ailənin, erkən nikahının, habelə sonrakı boşanma və təkrar nikahının mühüm rol oynadığını söyləməyə zəmin yaradır. Ədibin qadının haqq və hüquqları ilə bağlı səsləndirdiyi fikirlər, müdafiə etdiyi mövqe bir çox halda onun şəxsi həyat təcrübəsindən qaynaqlanan yaşam modeli seçimiylə bağlıdır;

– M.Drabl yaradıcılığından "qırmızı xətt" kimi keçən iki bacının qarşıdurması bilavasitə yazıçının böyük bacısı, Buker mükafatı laureatı A.S.Bayettlə ağrılı münasibətlərini özündə ehtiva edir. İstər M.Drabl, istərsə də A.S.Bayett ayrı-ayrı romanlarında müraciət etdikləri iki bacı qarşıdurmasını iki fərqli qadın yaşamı və seçimi modelinin qarşıdurmasında bədii əksini yaratmağa çalışmışlar;

– M.Drabl yaradıcılığında feminist və patriarxal ideyaların qarşıdurmasını nümayiş etdirən iki bacının toqquşmasını ədibin "Dəyirman daşı" romanında da izləmək olar. Patriarxal ailə formatına uyğunlaşan, ailə qılafında öz həyatını yaşayan Beatrislə kiçik bacı Rozamundun həyat baxışlarının, seçdiyi həyat yolunun qarşılaşdırılması müəllifin feminist ideyalarının açıqlanmasına, daha əyaniliklə təqdim edilməsinə yardımçı olmuşdur;

– M.Drablın anasının “kölgəsi”nin qadın obrazlarının formalaşmasında təsirinin təhlili “Pərvanə” romanının M.Drabl ailəsinin münasibətlərinin ekstrapolyasiyası kimi ortaya çıxdığını söyləməyə əsas verir. Müəllif romanın baş qəhrəmanı Bessi Bautri obrazını anası Ketlin Mari Blur timsalında qələmə almaqla arzularını gerçəkləşdirə bilməyən və ailə qılafında yaşamağa məhkum olan istedadlı qadının şəxsi faciəsinin anatomiyasını izləmişdir;

– Bir ailədəki üç nəsil qadının həyatı əsasında qələmə alınmış “Pərvanə” romanında müəllif “bədbəxtlik genləri”nin ötürücülük səviyyəsini müəyyənləşdirməyə çalışır. Məlum olur ki, Bessi Bautridən fərqli olaraq, onun qızı eynilə M.Drablın özü və bacısı kimi boşanmaqla daha xoşbəxt ailə həyatına qovuşa bilmişdir. İkinci nəsildə yarıda haqlanan şəxsi xoşbəxtlik həmin genin üçüncü nəslə “ötürücülük” ehtimalını aşağı endirmişdir. Ədib bununla qadının öz həyatına sahib olmaq bacarığının bir ailə dramı xronologiyasına əsaslı şəkildə təsir etdiyini ortaya qoymuşdur;

– “Pərvanə” romanının təhlili feminist ideyaların əsas qayəsini təşkil edən əsas ideyanın doğruluğunu sübut edir: öz ayaqları üstündə durmağı bacaran, cəmiyyətdə öz yerini, mövqeyini qazanmağa müvəffəq olan, sosial-maddi planda öz yerini, mövqeyini müəyyən edən qadının öz xoşbəxt ailə təməlini yarada biləcəyi halda, bütün bunlardan məhrum olub özünün və ətrafdakı yaxınlarının həyat işığını “qaralda” biləcəyi danılmazdır;

– M.Drablın feminist ideyalarını inikas etdirən əsərlərindən birində – “Dəyirman daşı” romanında qadının ailə həyatında şəxsi xoşbəxtliyinin yeganə mümkünlüyü şübhə altına alınır. Nikahdankənar övlad dünyaya gətirmək seçimini aparan Rozamundun timsalında ədib cəmiyyətdəki patriarxal baxışlara qarşı etirazını dilə gətirir və qadın xoşbəxtliyinin bilavasitə ailə ilə şərtlənmədiyini tam əyaniliklə ortaya qoyur;

– Rozamundun sevdiyi şəxs və qızı Oktaviyanın atası Corcla münasibətlərində izlədiyi davranış modeli də ziddiyyətdən uzaq deyildir. Əslində insani münasibətlər anlamında Corca qızının dünyaya gəldiyi xəbərinin verilməsinin doğru olacağını dərk edən Rozamund digər tərəfdən, ona özünü təklif edən, gücsüz, təpərsiz

qadın olmaqdan çəkinir. Rozamundun seçimi bilavasitə onun feminist kimliyini müəyyənləşdirir;

-V.Vulf və M.Drablın feminist görüşlərinin oxşarlıq və fərqliliklərini şərtləndirən amillərin təhlili ilk növbədə koqnitiv konstantalar və kulturoloji modellərin qarşılaşdırmasını labüd etmişdir. Məlum olmuşdur ki, V.Vulfun reallığı emosiyalar aləmindəki təlatümlərin, iztirab və ağrı-acıların reallığıdır: "quru" reallıq ona maraqsız və məzmunsuz görünür. Bu reallığın emosional infrastrukturu yoxdur və deməli, o, emosional tutumdan məhrum olduğuna görə, artıq əsl mənada nə reallıq, nə də onun "cansız imitasiyası"ndan başqa bir şey deyildir. Bundan fərqli olaraq, M.Drablın qadın qəhrəmanlarının bulunduğu zaman subyektiv də deyildir, əksinə o, tamamilə realdır: yaşanan sosial-siyasi proseslərin iştirakçısı olan qadın qəhrəmanlarının həmin tarixdə iştirakı ilə daha da konkretləşəcək səviyyədə realdır;

– V.Vulfla M.Drablın yazıçı şəxsiyyətlərinin qarşılaşdırılması androginlik, feminliyin ziddiyyət və birgəmövcudluğunun əsaslı fərqli yaradıcı formatlarının təsbitini mümkün edir. Belə ki, öz təbiəti etibarilə (cinsəl xüsusiyyəti baxımından) androginliyə meylli olan V.Vulf yaradıcı dühası ilə həm kişi, həm də qadın başlanğıcını özünəxas müəllif dəyərləndirməsi və interpretasiyalarında əks etdirə bilir. Əslində yaradıcı şəxsin androgin təbiətli olması zərurəti onun "Şəxsi otaq", "Orlando: Tərcümeyi-hal" və s. əsərlərində aşkar və ya implisit şəkildə ifadə edilir. M.Drablın yazıçı şəxsiyyətinin V.Vulfla müqayisəli təhlili androginlikdən daha çox femin "notlar"ın qabarıq sezildiyini təsbit etməyə əsas verir. M.Drabl ilk növbədə qadın yazıçıdır: o, qadınların problemini, hiss-həyəcanlarını, cəmiyyətdə rol və mövqe problemlərini, ağrılı özünü identifikasiya məsələlərini təhlil edir və onlara yaradıcı şəxsiyyəti prizmasından aydınlıq gətirir;

– V.Vulfun "Mayaka doğru" romanında ailə münasibətlərini feminizm ideyaları kontekstində araşdırması onu söyləməyə əsas verir ki, ədib qadını mərhəmətli və qayğıkeş təsvir etməklə onu "acıların" simvoluna çevirir, onda olan insani və qadına məxsus keyfiyyətlərini canlandırır. Qadın qəhrəmanlarının şüur axını ilə ədib ailədə hökm sürən qadın və kişi disharmoniyasını təsvir edir;

– V.Vulfun Missis Remzi ilə Lili Brisko obrazlarının qarşılaşdırılması timsalında qadının cəmiyyətdəki rolunun iki modelinin müqayisəsini aparması onun özünün bir çox məqamlarda ziddiyyətli yanaşmaya sahib olduğunu da ortaya qoyur. Belə ki, bir tərəfdən ardıcıl feminist olan V.Vulf, digər tərəfdən də, qadının bir şəxsiyyət kimi gerçəkləşməsi üçün ailənin vacibliyi ilə bağlı cəmiyyət stereotiplərindən qaçına bilmir;

– M.Drablın "Qızıl Yerusəlim" romanında ədib Klara Moem və onun anası Missis Moem obrazlarının timsalında qadının cəmiyyətdəki rolunun onun şəxsiyyət kimi formalaşmasında, eləcə də şəxsiyyət bütövlüyünün seçdiyi yola təsirində mühüm rol oynayır. Belə ki, cəmiyyətdə, həyatda öz yerini tapa bilməyən Missis Moem Drablın digər ana obrazı (Bessi Bautri) kimi özünün psixoemosional potensialını yaxınlarına qarşı mənəvi terror və manipulyasiyaya xərcləyir. Klara Moem isə "məqsədli vasitələrə haqq qazandırır" məntiqilə öz vicdanı ilə sövdələşməyə girməkdən çəkinmir;

– V.Vulf və M.Drablın feminist ideyalarının fərqliliyini şərtləndirən amillərin sistemli təhlili burada ilk olaraq, V.Vulfun feminist ideyalarında bir qədər patriarxal öngörüşlərdən təsirlənərək ikili yanaşma sərgiləndiyini söyləməyə əsas verir. Feminist ideyalarında ardıcıl və birmənalı olan M.Drabl isə qadının cəmiyyətdə gerçəkləşməsinin yalnız onun öz əlində olmasının vacibliyini bəyan edir. V.Vulf və M.Drabl feminizminin fərqliliyini təmin edən ən mühüm amil isə onların fərqli zaman kəsiyində yazıb yaratması və bununla da fərqli cəmiyyət şərtiliklərindən təsirlənmələrilə bağlıdır.

**Tədqiqatın əsas məzmunu və elmi müddəaları müəllifin çap olunmuş aşağıdakı əsərlərində əksini tapmışdır:**

1. О некоторых аспектах феминизма в романах Мюриэл Спарк // Збірник наукових праць (за матеріалами IX Міжнародної науково-практичної конференції від 29 по 29 грудня 2014 року) «Релігія, релігійність, філософія і гуманітаристика у сучасному інформаційному просторі: національний і інтернаціональний аспекти», – Рубіжне-Харків-Київ-Житомир-Баку-Ніш-Зелена Гура, – 2014, – с.66-68

2. Feminizm XX əsr Britaniya qadın nəsrində // Ümummilli Lider H.Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş “Gənc tədqiqatçıların III Beynəlxalq Elmi Konfransı”nın materialları, 2-ci kitab. – Bakı: Qafqaz Universiteti, – 17-18 Aprel – 2015, – s.1055-1057
3. Feminizm və dilçilik nəzəriyyəsi // Ümummilli Lider H.Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Gənc tədqiqatçıların IV Beynəlxalq Elmi Konfransı”nın materialları, 2-ci kitab. – Bakı: Qafqaz Universiteti, – 29-30 Aprel – 2016. – s.1301-1302
4. M.Drablın yaradıcılığında feminizm elementləri // “Xarici dillərin tədrisinin aktual problemləri” Respublika elmi-praktiki konfransının materialları, Bakı, 5-6 may 2016-cı il. – Bakı, – 2016. – s.437-439
5. M.Drablın “The Peppered Moth” romanında qadının cəmiyyətdə rolu və mövqeyi // – Bakı: ADU, Dil və Ədəbiyyat, – 2016. №4, – s.182-188
6. Virciniya Vulf və Marqaret Drablın feminist görüşlərində oxşarlıq və fərqliliklər // – Bakı: Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, – 2016. №3(99), – s.259-262
7. Koqnitiv konstantalar və kulturoloji modellər – qadın ədəbiyyatı “tədqiq” obyekti kimi (V.Vulf və M.Drablın “qadın ədəbiyyatı” – koqnitiv nizamlanmalara etiraz aspektində) // “Koqnitiv və tətbiqi dilçiliyin aktual problemləri” adlı Beynəlxalq elmi konfransın tezisləri (20-21 Oktyabr 2016-cı il). – Bakı: ADU, – 2016. – s.216-218
8. Marqaret Drabl: Yeni nəsil ədəbi-intellektual feminizm // – Bakı, “Tağıyev oxuları” elmi məqalələr məcmuəsi, – 2016. №2, – s.135-139
9. The Explication of Margaret Drabble’s feminist ideas against the background of the confrontation of two thinking models (on the basis of the “The Millstone”) // – United Kingdom: Advanced in Social Sciences Journal (December, 2016), – 2016. Vol.3, No13, – p.11-17
10. M.Drablın yaradıcılığında feminist və patriarxal düşüncə tərzinin müqayisəsi // Doktorantların və gənc tədqiqatçıların XXI

Respublika elmi konfransının materialları – II, – Bakı, 24-25 oktyabr, – 2017, – s.220-222
11. M.Drabl yaradıcılığında “Jerusalem the Golden” romanının yeri (feminizm problemləri kontekstində) // – Bakı: ADU, Dil və ədəbiyyat, – 2017. c.8. № 3, – s.176-181
12. V.Vulfun “To the Lighthouse” romanında ailə münasibətləri, feminizm ideyaları kontekstində // – Bakı, Filologiya məsələləri, 2018. №8, – s.310-318
13. M.Drabble and A.S.Byatt’s creativity as the point of intersection of the general feminist ideas // World Science: Problems and Innovations. Сборник статей XL международной научно-практической конференции «World Science: Problems and Innovations», состоявшейся 28 февраля 2020 г. в г.Пенза. – Пенза, – p.116-119

Dissertasiyanın müdafiəsi 29 mart 2022 il tarixində saat $14^{00}$ Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "24" fevral 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24.02.2022

Kağızın formatı: 60x84 1/16

Həcm: 43 017 işarə

Tiraj: 100 nüsxə